**"Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası 1999-cu il iyunun 17-də Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul edilmiş "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 yanvar 2004-cü il
№ 585-IIQ

182-ci Konvensiya

**Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair**

**KONVENSİYA**

Beynəlxalq Əmək Təşkilatının Baş konfransı

1999-cu il iyunun 1-də Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış 87-ci sessiyasına toplaşaraq,

uşaq əməyi üzrə əsas sənədlər kimi qalmaqda olan minimum yaş həddi haqqında 1973-cü il Konvensiyası və Tövsiyəsini tamamlaya biləcək milli və beynəlxalq fəaliyyət, o cümlədən beynəlxalq əməkdaşlıq və beynəlxalq yardım üçün başlıca prioritet qismində uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və aradan qaldırılması məqsədilə yeni aktlar qəbul edilməsini zəruri sayaraq,

uşaq əməyinin ən pis formalarının təsirli vasitələrlə aradan qaldırılması üçün pulsuz baza təhsilinin böyük əhəmiyyətini və uşaqların bu növ işlərdən azad olmasının zəruriliyini, habelə onların reabilitasiyası və ailələrinin ehtiyaclarını unutmamaq şərtilə sosial inteqrasiyasını nəzərə alan təcili və hərtərəfli tədbirlər görülməsinin tələb olunduğunu lazım bilərək,

1996-cı ildə Beynəlxalq Əmək Təşkilatı konfransının 83-cü sessiyasında qəbul olunmuş Uşaq əməyinin ləğv edilməsi haqqında Qətnaməni xatırladaraq,

uşaq əməyinin əsasən yoxsulluğun nəticəsi olduğunu və bu məsələnin uzun-müddətli həllinin sosial tərəqqiyə, o cümlədən, yoxsulluğun aradan qaldırılmasına və ümumi təhsilə aparan sabit iqtisadi inkişafdan asılı olduğunu etiraf edərək,

1989-cu il noyabrın 20-də Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş Uşaq hüquqları haqqında Konvensiyanı xatırladaraq,

1998-ci ildə Beynəlxalq Əmək Təşkilatı konfransının 86-cı sessiyasında qəbul edilmiş Əmək sahəsində əsas prinsiplər və hüquqlar haqqında BƏT Bəyannaməsini və onun həyata keçirilməsi mexanizmini xatırladaraq,

uşaq əməyinin ən pis formalarından bəzilərinin digər beynəlxalq aktlarla, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Məcburi əmək haqqında 1930-cu il Konvensiyası və Köləliyin,

qul alverinin və köləliyə oxşar təsisat və adətlərin ləğv olunması haqqında 1956-cı il Əlavə Konvensiyası ilə əhatə edildiyini xatırladaraq,

sessiyanın gündəliyinin dördüncü bəndilə uşaq əməyi haqqında bir sıra təklifləri qəbul etməyi qərara alaraq,

bu təkliflərə beynəlxalq konvensiya forması verməyi qərara alaraq,

min doqquz yüz doxsan doqquzuncu il iyunun on yeddisində Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyası adlandırıla biləcək aşağıdakı Konvensiyanı qəbul edir.

M a d d ə 1

Bu Konvensiyanı ratifikasiya edən hər bir üzv dövlət uşaq əməyinin on pis formalarının təcili qaydada qadağan edilməsini və aradan qaldırılmasını təmin edən təsirli tədbirlər görür.

M a d d ə 2

Bu Konvensiyanın məqsədləri üçün "uşaq" termini 18 yaşma çatmamış bütün şəxslərə şamil edilir.

M a d d ə 3

Bu Konvensiyanın məqsədləri üçün "uşaq əməyinin on pis formaları" termininə aşağıdakılar daxildir:

a) köləliyin bütün formaları və ya köləliyə oxşar təcrübə, məsələn, uşaqların satılması və uşaq alveri, borc və təhkimçilik asılılığı, habelə məcburi və ya icbari əmək, o cümlədən, uşaqlardan silahlı münaqişələrdə istifadə edilməsi üçün onları məcburi və ya icbari surətdə cəlb etmə;

b) fahişəliklə məşğul olmaq, pornoqrafik materialların istehsalı, yaxud pornoqrafik tamaşalar üçün uşaqdan istifadə etmə, onu cəlb etmə və ya təklif etmə;

c) müvafiq beynəlxalq müqavilələrdə müəyyən edildiyi kimi, hüquqa zidd fəaliyyətlə məşğul olmaq üçün, xüsusilə, narkotik maddələrin istehsalı və satışı üçün uşaqdan istifadə etmə, onu cəlb etmə və ya təklif etmə;

d) öz xarakterinə və ya yerinə yetirildiyi şəraitə görə uşaqların sağlamlığına, təhlükəsizliyinə və ya mənəviyyatına ziyan vura biləcək iş.

M a d d ə 4

1. Milli qanunvericilik və ya səlahiyyətli orqan, müvafiq beynəlxalq normaları, xüsusilə Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Tövsiyələrinin 3-cü və 4-cü bəndlərinin müddəalarını nəzərə alaraq, marağı olan işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra 3-cü maddənin d) bəndində göstərilmiş iş növlərini müəyyən edir.

2. Səlahiyyətli orqan marağı olan işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra bu yolla müəyyən edilmiş iş növlərinin həyata keçirilməsi yerlərini aşkar edir.

3. Bu maddənin 1-ci bəndinə əsasən müəyyən edilmiş iş növlərinin siyahısı vaxtaşırı təhlil edilir və zərurət yarandıqda, marağı olan işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra həmin siyahıya yenidən baxılır.

M a d d ə 5

Hər bir üzv dövlət işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra, bu Konvensiyanı həyata keçirən müddəaların tətbiqinə nəzarət etmək üçün müvafiq mexanizmləri yaradır və ya göstərir.

M a d d ə 6

1. Hər bir üzv dövlət uşaq əməyinin ən pis formalarının prioritet qaydada aradan qaldırılması üzrə fəaliyyət proqramları hazırlayır və həyata keçirir.

2. Bu cür fəaliyyət proqramları müvafiq hökumət orqanları, işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra, zərurət yarandıqda isə, digər maraqlı qrupların rəyini nəzərə almaqla hazırlanır və həyata keçirilir.

M a d d ə 7

1. Hər bir üzv dövlət bu Konvensiyanın həyata keçirilən müddəalarının təsirli tətbiqini və onlara riayət olunmasını təmin etmək üçün zəruri olan bütün tədbirləri görür, o cümlədən cinayət sanksiyalarını və ya şəraitdən asılı olaraq digər sanksiyaları təyin və tətbiq edir.

2. Hər bir üzv dövlət uşaq əməyinin aradan qaldırılması işində təhsilin va-cibliyini nəzərə alaraq, müəyyən edilmiş müddətlərdə:

a) uşaq əməyinin ən pis formalarına uşaqların cəlb olunmasına yol verilməməsinə;

b) uşaq əməyinin ən pis formaları ilə uşaqların məşğul olmasına son qoymaq, habelə onların reabilitasiyası və sosial inteqrasiyası üçün bilavasitə zəruri və lazımi kömək göstərilməsinə;

c) uşaq əməyinin ən pis formalarından azad edilmiş bütün uşaqlar üçün pulsuz baza təhsilinin, habelə imkan və zərurət daxilində, texniki peşə hazırlığının mümkünlüyünü təmin etməyə;

d) xüsusilə müdafiəsiz vəziyyətdə olan uşaqların aşkar edilməsi və təsir dairəsinə alınmasına; və

e) qızların vəziyyəti xüsusiyyətlərinin nəzərə alınmasına yönəldilmiş təsirli tədbirlər görür.

3. Hər bir üzv-dövlət bu Konvensiyanın həyata keçirilən müddəalarının tətbiqinə görə məsuliyyət daşıyan səlahiyyətli orqanı təyin edir.

M a d d ə 8

Üzv dövlətlər bu Konvensiya müddəalarının həyata keçirilməsində bir-birlərinə kömək etmək məqsədilə zəruri tədbirlər görürlər və bunun üçün sosial-iqtisadi inkişafa, yoxsulluqla mübarizə və ümumi təhsil üzrə proqramlara dəstək verilməsi daxil olmaqla, daha geniş beynəlxalq əməkdaşlıq və/və ya yardımdan istifadə edirlər.

M a d d ə 9

Bu Konvensiyanın ratifikasiyası barədə rəsmi fərmanlar qeydiyyata alınmaq üçün Beynəlxalq Əmək Bürosunun Baş direktoruna göndərilir.

M a d d ə 10

1. Bu Konvensiya Beynəlxalq Əmək Təşkilatının yalnız ratifikasiya fərmanları Beynəlxalq Əmək Bürosunun Baş direktoru tərəfindən qeydiyyatdan keçmiş üzvləri üçün məcburi qüvvəyə malikdir.

2. Bu Konvensiya, Təşkilatın iki üzvünün ratifikasiya fərmanları Baş direktor tərəfindən qeydiyyatdan keçirildiyi tarixdən on iki ay sonra qüvvəyə minir.

3. Daha sonra bu Konvensiya Təşkilatın hər bir üzvü üçün onun ratifikasiya fərmanının qeydiyyatdan keçirildiyi tarixdən on iki ay sonra qüvvəyə minir.

M a d d ə 11

1. Təşkilatın bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzvü onun ilk dəfə qüvvəyə mindiyi gündən sonrakı on illik dövr başa çatdıqdan sonra Beynəlxalq Əmək Bürosunun Baş direktoruna qeydiyyatdan keçirilmək üçün göndərdiyi ləvğetmə haqqında ərizə vasitəsilə onu ləğv edə bilər. Ləğvetmə, onun qeydiyyat tarixindən bir il keçdikdən sonra qüvvəyə minir.

2. Təşkilatın bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzvü bundan əvvəlki bənddə göstərilən on illik dövr başa çatdıqdan sonra bir il ərzində özünün bu maddədə nəzərdə tutulan ləğvetmə hüququndan istifadə etmədikdə, növbəti on

il ərzində Konvensiya ilə bağlı olacaq və daha sonra hər on illik dövr başa çatdıqda, bu maddədə göstərilmiş qaydada bu Konvensiyanı ləğv edə bilər.

M a d d ə 1 2

1. Beynəlxalq Əmək Bürosunun Baş direktoru, Beynəlxalq Əmək Təşkilatı üzvlərinin ona göndərdikləri bütün ratifikasiya fərmanlarının və ləğvetmə haqqında ərizələrin qeydiyyatdan keçirildiyi barədə Təşkilatın bütün üzvlərinə məlumat verir.

2. Baş direktor aldığı ikinci ratifikasiya fərmanının qeydiyyatdan keçirildiyini Təşkilatın üzvlərinə bildirdikdə, onların diqqətini Konvensiyanın qüvvəyə minməsi tarixinə cəlb edir.

M a d d ə 1 3

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, Beynəlxalq Əmək Bürosunun Baş direktoru bundan əvvəlki maddənin müddəalarına əsasən qeydiyyatdan keçirdiyi bütün ratifikasiya fərmanları və ləğvetmə ərizələri barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ətraflı məlumat göndərir.

M a d d ə 1 4

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası, lazım bildiyi ballarda, Baş konfransa bu Konvensiyanın tətbiqinə dair məruzə təqdim edir və bu Konvensiyaya tam, yaxud qismən yenidən baxılması məsələsinin konfransın gündəliyinə salınıb-salınmamasını həll edir.

M a d d ə 1 5

1. Konfrans bu Konvensiyanı tam, yaxud qismən dəyişdirən yeni konvensiya qəbul edərsə və yeni konvensiyada başqa şərt nəzərdə tutulmayıbsa:

a) Təşkilatın hər hansı bir üzvü tərəfindən dəyişdirilmiş yeni konvensiyanın ratifikasiya edilməsi, 11-ci maddənin müddəalarından asılı olmayaraq, mövcud Konvensiyanın dərhal ləğvinə səbəb olacaqdır, bu şərtlə ki, dəyişdirilmiş yeni konvensiya qüvvəyə minmiş olsun;

b) dəyişdirilmiş yeni konvensiya qüvvəyə mindiyi gündən bu Konvensiya Təşkilat üzvlərinin onu ratifikasiya etməsi üçün bağlıdır.

2. Bu Konvensiya onu ratifikasiya etmiş, lakin dəyişdirilmiş konvensiyam ratifikasiya etməmiş Təşkilat üzvləri üçün istənilən halda forma və məzmunca qüvvədə qalır.

M a d d ə 1 6

Bu Konvensiyanın ingilis və fransız dillərindəki mətnləri eyni qüvvəyə malikdir.

## Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və aradan qaldırılmasına dair təcili tədbirlər haqqında 190 nömrəli
## TÖVSİYƏ

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış və 1999-cu il iyunun 1-də özünün 87-ci sessiyasına toplaşmış Beynəlxalq Əmək Təşkilatının Baş konfransı Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyasını qəbul edərək, sessiyanın gündəliyində dördüncü bənd sayılan uşaq əməyinə aid bir sıra təkliflərin qəbul edilməsini qərara alaraq, bu təkliflərə Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyasını tamamlayan tövsiyə formasını verməyi qərara alaraq, min doqquz yüz doxsan doqquzuncu il

iyun ayının on yeddisində Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Tövsiyəsi adlana biləcək aşağıdakı Tövsiyəni qəbul edir.

1. Bu Tövsiyənin müddəaları Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyasının (bundan sonra "Konvensiya" adlandırılacaqdır) müddəalarım tamamlayır və onunla birlikdə tətbiq edilməlidir.

## I. FƏALİYYƏT PROQRAMLARI

2. Konvensiyanın 6-cı maddəsində qeyd edilmiş fəaliyyət proqramları, bilavasitə uşaq əməyinin ən pis formalarına cəlb edilmiş uşaqların, habelə onların ailələrinin fikirlərini və lazım gəldikdə, Konvensiyanın və bu Tövsiyənin məqsədlərinə şərik çıxan digər maraqlı qrupların fikirlərini nəzərə alaraq, müvafiq hökumət qurumları və işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra təcili surətdə işlənib hazırlanmalı və həyata keçirilməlidir. Bu qəbildən olan proqramlar, digərlərilə yanaşı, aşağıdakı məqsədləri daşımalıdır:

a) uşaq əməyinin ən pis formalarının aşkar edilməsi və pislənilməsi;

b) uşaqların uşaq əməyinin on pis formalarına cəlb edilməsinə'yol verilməməsi və ya bu cür əməklə məşğul olmalarının dayandırılması, onların təzyiqlərdən müdafiəsi və təhsil sahəsində ehtiyaclarını, habelə fiziki və psixoloji tələbatlarını nəzərə alan tədbirlər vasitəsilə onların reabilitasiyasının və sosial inteqrasiyasının təmin edilməsi;

c) xüsusi diqqətin: i) azyaşlı uşaqlara; ii) yeniyetmə qızlara;

iii) qızların xüsusi təhlükəyə məruz qaldıqları gizli iş formaları probleminə; iv) xüsusilə müdafiəsiz hesab edilən və ya xüsusi ehtiyacları olan digər qrup uşaqlara yetirilməsi;

d) uşaqların xüsusi təhlükəyə məruz qaldıqları icmaların aşkar olunması, bu qəbildən olan icmaların əhatəyə alınması vo onlarla iş aparılması;

e) ictimaiyyətin və maraqlı qrupların, o cümlədən uşaqların və onların ailələrinin məlumatlandırılması, onların diqqətinin bu problemə cəlb edilməsi və onların səfərbər edilməsi.

## II. TƏHLÜKƏLİ İŞ

3. Bu Konvensiyanın 3-cü maddəsinin d) bəndində qeyd edilmiş işlərin növlərini müəyyən edərkən vo onların həyata keçirilmə yerlərini aşkar edərkən müzakirə predmetinə, digərlərilə yanaşı, aşağıdakılar aid olunmalıdır:

a) uşaqların fiziki, psixoloji və ya cinsi zorakılığa məruz qaldığı işlər;

b) yerin altında, suyun altında, təhlükəli hündürlükdə və ya qapalı məkanda görülən işlər;

c) təhlükəli mexanizm, avadanlıq və alətlərlə görülən işlər və ya ağır yüklərin əl ilə daşınmasını və ya yerinin dəyişdirilməsini tələb edən işlər;

d) uşaqların, məsələn, təhlükəli maddələrin və ya proseslərin və yaxud da onların səhhətinə zərər yetirən hərarətin, səs və ya vibrasiya səviyyəsinin təsirinə məruz qala biləcəkləri, sağlamlıq üçün zərərli olan şəraitdə aparılan işlər;

e) xüsusilə çətin şəraitdə, məsələn, iş müddətinin uzun davam etməsi və ya gecə işlərilə bağlı şəraitdə aparılan işlər, habelə' işəgötürənə məxsus olan yerdə uşağın əsassız saxlanılmasına səbəb olan işlər.

4. Konvensiyanın 3-cü maddəsinin d) bəndində və yuxarıdakı 3-cü bənddə qeyd edilmiş iş növlərinə münasibətdə, milli qanunvericilik və ya səlahiyyətli orqan işçi və işəgötürən təşkilatları ilə məsləhətləşmələrdən sonra uşaqların 16 yaşa çatdıqdan sonra işə qəbul edilməsinə icazə verə bilərlər, bu şərtlə ki, uşaqların sağlamlığının, təhlükəsizliyinin və mənəviyyatının mühafizəsi tam təmin edilsin və uşaqlar müvafiq fəaliyyət sahəsində lazımi xüsusi təlimat və ya peşə hazırlığı keçsinlər.

## III. TƏTBİQ ETMƏ

5.1) Uşaq əməyinin xarakteri və miqyası haqqında ətraflı məlumat və statistik rəqəmlər toplamaq və onları yeniləşdirmək lazımdır; bunlar uşaq əməyinin ləğvi, xüsusilə də onun ən pis formalarının təcili surətdə qadağan edilməsi və aradan qaldırılması üzrə milli səviyyədə görülən tədbirlərə uyğun olaraq prioritetləri müəyyənləşdirmək üçün əsas olmalıdır.

2) Bu qəbildən olan məlumat və statistik rəqəmlər imkan daxilində cins, yaş qrupları, məşğuliyyət növü, iqtisadi fəaliyyət sahələri, məşğulluğa münasibət, məktəbə davamiyyət və coğrafi baxımdan yerləşmə üzrə ayrı-ayrı məlumatları əks etdirməlidir. Doğum haqqında şəhadətnamələrin verilməsini şərtləndirən səmərəli doğum qeydiyyatı sisteminin mühüm əhəmiyyətini nəzərə almaq lazımdır.

3) Milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının pozulmasına aid edilən müvafiq məlumatları toplamaq və yeniləşdirmək lazımdır.

6. Yuxarıda 5-ci bənddə qeyd edilən məlumatın və rəqəmlərin toplanması və işlənməsi şəxsi həyatın müdafiəsi hüququnu lazımınca nəzərə almaqla həyata keçirilməlidir.

7. Yuxarıdakı 5-ci bəndə uyğun olaraq toplanan məlumat mütəmadi olaraq Beynəlxalq Əmək Bürosuna göndərilməlidir.

8. Üzv dövlətlər işçi və işəgötürən təşkilatları ilə məsləhətləşmələrdən sonra milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının tətbiq edilməsinə nəzarəti həyata keçirmək üçün müvafiq milli mexanizmləri yaratmalı və ya göstərməlidirlər.

9. Üzv dövlətlər milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının tətbiq edilməsinə məsul olan səlahiyyətli orqanların öz aralarında əməkdaşlıq etməsini və öz fəaliyyətlərini əlaqələndirməsini təmin etməlidirlər.

10. Milli qanunvericilik və ya səlahiyyətli orqan milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının yerinə yetirilməməsinə görə hansı şəxslərin məsuliyyət daşıdığını müəyyən etməlidir.

11. Üzv dövlətlər uşaq əməyinin ən pis formalarının təcili surətdə qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilən, beynəlxalq səviyyədə göstərilən səylərdə aşağıdakı vasitələrlə, milli qanunvericiliklə bir araya sığacaq dərəcədə iştirak etməlidirlər:

a) cinayətlərə, o cümlədən beynəlxalq şəbəkələrin iştirakı ilə törədilən hüquqpozmalara aid məlumatların toplanması və mübadiləsi;

b) uşaqların satılması və uşaq alverilə məşğul olan, yaxud uşaqların qeyri-qanuni fəaliyyətlə, fahişəliklə məşğul olmaq, pornoqrafik məhsullar hazırlamaq və ya pornoqrafik tamaşalar üçün istifadəsi, cəlb edilməsi və ya təklif edilməsilə məşğul olan şəxslərin axtarışı və qanun əsasında təqibi;

c) bu cür hüquqpozmalar törədən şəxslərin qeydə alınması.

12. Üzv dövlətlər nəzərə almalıdırlar ki, uşaq əməyinin aşağıda qeyd edilən ən pis formaları cinayət hesab edilir:

a) köləliyin bütün formaları və ya köləliyə oxşar təcrübə, məsələn, uşaqların satılması və uşaq alveri, borc və təhkimçilik asılılığı, habelə icbari və ya məcburi əmək, o cümlədən uşaqlardan silahlı münaqişələrdə istifadə üçün onların icbari və ya məcburi olaraq cəlb edilməsi;

b) uşağın fahişəliklə məşğul olması, pornoqrafik məhsulların hazırlanması və ya pornoqrafik tamaşalar üçün istifadəsi, cəlb edilməsi və ya təklif edilməsi;

c) uşağın qeyri-qanuni fəaliyyət, xüsusilə müvafiq beynəlxalq müqavilələrdə müəyyən edildiyi kimi, narkotiklərin istehsalı və satışı, yaxud odlu və ya digər silahın qeyri-qanuni

gəzdirilməsi və ya tətbiq edilməsilə bağlı məşğuliyyət üçün istifadəsi, cəlb edilməsi və ya təklif edilməsi.

13. Üzv dövlətlər milli qanunvericiliyin Konvensiyanın 3-cü maddəsinin d) bəndində göstərilən bütün iş növlərinin qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının pozulmasına görə cəzaların, o cümlədən lazım gəldikdə, cinayət cəzalarının tətbiq olunmasını təmin etməlidirlər.

14. Üzv dövlətlər milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarına səmərəli əməl olunmasını təmin etmək məqsədilə, lazımi hallarda həmçinin cinayət, mülki və ya inzibati xarakterli digər hüquq-müdafiə tədbirlərinin, o cümlədən uşaq əməyinin ən pis formalarından istifadə olunmuş müəssisələrə xüsusi nəzarət, daimi pozuntular baş verən hallarda isə təsərrüfat fəaliyyətinin aparılmasına icazənin müvəqqəti dayandırılması kimi tədbirlərin təcili surətdə tətbiq edilməsini nəzərdə tutmalıdırlar.

15. Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş digər tədbirlərə aşağıdakılar aid edilə bilər:

a) məlumatlandırma, həmin problemə diqqətin cəlb edilməsi və geniş ictimaiyyətin, o cümlədən milli və yerli siyasi rəhbərlərin, parlament üzvlərinin və hakimlərin səfərbər edilməsi;

b) işəgötürən və işçi təşkilatlarının, həmçinin ictimai təşkilatların cəlb edilməsi və təlimatlandırılması;

c) hökumətin müvafiq vəzifəli şəxslərinin, xüsusilə hüquq mühafizə orqanları işçilərinin və müfəttişlərinin, habelə digər müvafiq mütəxəssislərin lazımi peşə hazırlığının təmin edilməsi;

d) üzv dövlətlərin milli qanunvericiliyinin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına"yönəldilmiş müddəalarına uyğun olaraq, hüquq pozuntuları törədən, hətta həmin hüquq pozuntularının digər ölkədə törədildiyi təqdirdə belə, öz vətəndaşlarının üzv-dövlətlər tərəfindən öz ölkələrində məhkəmə təqibi;

e) məhkəmə və inzibati prosedurların sadələşdirilməsi, habelə onların məqsədyönlülüyünün və tezliyinin təmin edilməsi;

f) müəssisələrin Konvensiyanın məqsədlərinə nail olunmasına yönəldilmiş siyasətin həyata keçirilməsinə təşviq edilməsi;

g) uşaq əməyinin aradan qaldırılması sahəsində ən yaxşı təcrübənin monitorinqi və ictimaiyyətə çatdırılması;

h) uşaq əməyi haqqında hüquqi və ya digər qaydaların müxtəlif dillərdə və ya dialektlərdə nəşr edilməsi;

i) qanuna əsasən Konvensiyanın müddəalarının pozulduğunu göstərən şəxslərin şikayətlərinə baxılmasının xüsusi prosedurlarının müəyyən edilməsi və həmin şəxslərin ayrı-seçkilikdən və təzyiqlərdən müdafiəsi haqqında qaydaların işlənib hazırlanması, habelə telefon şəbəkələrinin və ya yardım məntəqələrinin yaradılması və vasitəçilərin təyin edilməsi;

j) oğlan və qızların ehtiyaclarını nəzərə almaq üçün təhsil infrastrukturunun və müəllimlərin peşə hazırlığının təkmilləşdirilməsi üzrə lazımi tədbirlərin görülməsi;

k) milli fəaliyyət proqramlarında imkan daxilində aşağıdakıların nəzərə alınması:

i) uşaqları Konvensiya ilə qadağan edilən şəraitdə işləyən valideynlər və onların ailələrinin böyük üzvləri üçün iş yerlərinin yaradılmasının və onların peşə-texniki hazırlığının zəruriliyi, və

ii) bu cür şəraitdə işləyən uşaqlarının problemlərinə valideynlərin diqqətinin cəlb edilməsinin zəruriliyi.

16. Üzv dövlətlər arasında daha sıx beynəlxalq əməkdaşlıq və/və ya uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və səmərəli şəkildə aradan qaldırılması işində biri-birinə yardım milli səylərə yardımçı olmalı və lazım gəldikdə, işəgötürən və işçi təşkilatları ilə

məsləhətləşmələrdən sonra inkişaf etdirilməli və həyata keçirilməlidir. Bu cür əməkdaşlığa və/və ya yardıma aşağıdakılar daxil edilməlidir:

a) milli və ya beynəlxalq proqramlar üçün resursların səfərbər edilməsi;

b) qarşılıqlı hüquqi yardım;

c) texniki yardım, o cümlədən məlumat mübadiləsi;

d) sosial-iqtisadi inkişafın, eləcə də yoxsulluğu aradan qaldırma və ümum-təhsil proqramlarının dəstəklənməsi.